

**İdeoloji işimizdə tarix və mədəniyyət abidələrinin təbliği mühüm yer tutur. Bu işdə dövlət və özəl radio və telekanalları, dövri mətbuat, elmi tədqiqat müəssisələri və geniş ziyalı kütlələri fəal iştirak edirlər. Tarix və mədəniyyət abidələri haqqında müntəzəm televiziya verilişləri abidələrin təbliğini lazımi qaydada tamaşaçılara çatdırırlar. Televiziya tamaşaçıları da bu verilişləri çox diqqət və maraqla izləyirlər.**

# Gənclərin tərbiyəsində mədəni irsin rolu

**Bununla yanaşı, Azərbaycanın memarlıq tarixini, incəsənətini və arxeologiyasını, qədim Azərbaycan əlyazmalarının çox zəngin fondunu işıqlandıran bir çox əsərlər, monoqrafiyalar, bukletlər və başqa materiallar nəşr edilməlidir.**

Hər bir vətənpərvər şəxs öz təşkilati izahat işini elə gücləndirməlidir ki, xalq arxeoloji abidələrə diqqəti artırsın, arxeoloji tədqiqatların nəticələri və yurdumuzun tarixi ilə daha yaxşı tanış olsun, bu abidələrin etibarlı surətdə qorunmasını təmin etsin.

Bununla yanaşı tarixi və mədəniyyət abidələrimizi yaşatmaq üçün ayrı-ayrı memarlıq abidələrini təsvir edən döş nişanları hazırlamaq, hər bir abidə haqqında müxtəlif mövzularda sərgilər təşkil etmək, müttəfiq respublikaların tarixi və mədəniyyət abidələrini öyrənmək və onların təcrübələrindən yararlanmaq lazımdır.

Məktəblilər üçün "Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə olunması", "Gənclərin estetik, vətənpərvərlik və beynəlmiləl tərbiyəsində mədəni irsin rolu", "Abidələrin gənc mühafizəçiləri" və başqa buna oxşar mövzularda inşa yarışmaları müsabiqələri keçirilməsi məqsədəuyğundur.

Bununla yanaşı, hər bir tarixi və yaxud mədəniyyət abidələrinin qorunması üçün məktəblərdə, litseylərdə, kolleclərdə, institut və universitetlərdə maarifləndirmə işləri aparılmalı, hər bir rayon və şəhər məktəbləri arasında tarixi və mədəniyyət abidələri bölüşdürülərək onların mühafizə olunması üçün məktəblilərin iştirakı ilə abidələrin ərazilərinin mütəmadi olaraq abadlaşdırılması üçün işlər görülməlidir.

Məktəblilər arasında yuxarı sinif şagirdlərindən ibarət "Abidələrin gənc mühafizəçiləri" dəstələri yaradılmalıdır. Qeyd etmək lazımdır ki, tarix və mədəniyyət abidələrinin təbliğini gücləndirmək üçün məktəblilərdən istifadə imkanları çox məqsədəuyğundur.

Respublikamızda xatirə abidələri də çoxluq təşkil edir. Onlar memarlıq abidələri kimi çox qiymətlidir. Lakin çox vaxt tüfeyli həyat tərzi sürən ayrı-ayrı adamlar orada dəfn olunan şəxslərin "müqəddəsliyi" haqqında müxtəlif uydurmalar yayaraq sadəlövh adamları aldadır və həmin abidələrdən tamah məqsədilə istifadə edirlər. Bu iş əsasən o abidələr üzərində aparılır ki, onlar haqqında əhalinin kifayət qədər məlumatı yoxdur. Odur ki, bu işlə məşğul olan aidiyyəti orqanlar, mədəni-maarif işçiləri, tarixçilər, mətbuat orqanları birlikdə abidələr haqqında əhali arasında geniş izahat işi aparmalı və bununla da gələcək nəsillərə bu günün və keçmişdən yadigar qalmış abidələri qorumalıdırlar.

Azərbaycanın tarix və mədəniyyət abidələ-

ri haqqında çox cildli rəngli albomun nəşri də nəzərə alınaraq çap olunmalıdır. Abidələrin mühafizəsi işində gənclərin, iş adamlarının, idarə və təşkilatların köməyi olmalıdır. Məktəblərdə abidələri sevənlər klubları və dərnəkləri yaradılmalı, onların vasitəsilə tarix və mədəniyyət abidələri təbliğ edilməlidir. Böyüməkdə olan nəsil dövlətimizin müstəqilliyi və əbədiyyəti ruhunda tərbiyə edilməlidir. Tarix və mədəniyyət abidələrinin mühafizəsi həmişə dövlətin ideoloji iş sahəsindəki fəaliyyətinin tərkib hissəsi olmalıdır.

Azərbaycan xalq sənətinin son dərəcə kamil nümunələri olan sərdabələr, məqbərələr, abidələr, qalalar, saraylar, binalar və məişətdə işlənən cürbəcür maraqlı şeylər çoxdur. Bütün bunları qoruyub saxlamaq çox vacib mədəni işdir. Bununla belə, etiraf etməliyik ki, bəzi yerlərdə bu abidələrin qiymətini və əhəmiyyətini başa düşmürlər. Onları nəinki küləyin, qarın, yağışın, təbii fəlakətlərin təsirindən qorumurlar, hətta mədəniyyətsiz adamlardan, mal-qaranın hücumundan da mühafizə etmirlər.

Vaxtlı-vaxtında təmir olunmayan, uçulub dağılan, rəngini, naxışlarını, tarixi yazılarını itirən abidələrimiz də var. Ziyalılar, mədəniyyət, dövlət və digər təşkilatlarda çalışan işçilər yaşadıqları, fəaliyyət göstərdikləri yerlərdə memarlıq, mədəniyyət abidələrini daimi nəzarət altında saxlamağı, qorumağı özlərinə vətəndaşlıq borcu bilməlidirlər. Axı bütün sənət abidələri xalqın həm tarixinin şahidləri, danışan dilidir, həm də xalqın inkişafı, tərəqqisi, yeni nəslin tərbiyəsi üçün lazımdır.

İnsanların vətənpərvərlik, humanizm ruhunda və mənəvi tərbiyəsində tarixi abidələrin bütün növlərinin böyük rolu var. Həmin abidələr vasitəsilə xalqlar tarixin bir çox qaranlıq, sirli, düyünlü cəhətlərini öyrənir.

Tarix və mədəniyyət abidələrinin mühafizəsi, bərpası, istifadəsi və təbliği sahəsində dövlət və ictimai təşkilatların fəaliyyəti son dərəcə genişləndirilməlidir. İndi bu iş əhalinin və dövlətin əsas vəzifələrinə, ilk növbədə, gənc nəslin vətənpərvərlik tərbiyəsinə xidmət etməlidir. Ona görə ki, abidələr hər xalqın maddi və mədəni həyatını, əməksevərliyini və istedadını, öz milli azadlığı uğrunda əsrlər boyu apardığı mübarizənin tarixini əks etdirən canlı şahiddir.

Azərbaycan torpağı tarix və mədəniyyət abidələri ilə zəngindir. Bunlar çox qədim dövrlərdən bəri yaranıb, özünün bacarıqlı, cəsarətli tədqiqatçılarını gözləyən müxtəlif yerüstü və yeraltı abidələrdir. Şəhər və kəndləri gəzib-gördükcə, tariximizin açılmaz səhifələrini öyrəndikcə ulu babaların yaratdıqlarına heyran qalırsan. Onları müasir nəsillərə tanıtmaq və qoruyub yaşatmaq üçün bizi hələ də gərgin və geniş miqyaslı işlər gözlədiyini düşünmək lazımdır.

Vətənimizin tarixinə dair yeni səhifələr açmaq, ulu babalarımızın gözəl yadigarlarını gələcək nəsillər üçün qoruyub saxlamaq, şəhər və kəndlərimizdə yaranmış tarixi-mədəni mühitin saflığına çalışmaq, insanlarımızda vətənpərvərlik hissləri və bədii zövqi tərbiyə edən gözəllikləri bərpa edib artırmaq bizdən mənəvi yüksəliş, mənəvi zənginlik tələb edir. Odur ki, tarixi-mədəni irsə münasibət yeni meyarla ölçülməli, bugünkü tələblər səviyyəsində qiymətləndirilməlidir.

Açıq deməliyik ki, abidələrimizin öyrənilməsi və aşkara çıxarılması, mühafizə və istifadə olunması, bərpa və təbliğ edilməsi sahəsindəki fəaliyyətimiz bizi qətiyyən razı sala bilməz. İşimizin bu istiqamətləri üzrə kompleks plan əsasında, ardıcıl surətdə geniş əlaqələndirmə tədbirləri görülməlidir.

Ölkəmizdə təbliğat-təşviqat işinin genişləndirilməsi üçün gənclərimizin əməyindən geniş istifadə olunmalıdır. Bu tədbir gənclərimizi xalqın tarixi mədəni irsinin qorunub saxlanılması yolunda vətənpərvərlik həyatına cəlb edər, onların vətənə, xalqa sədaqət ruhunda yetişməsinə təsir göstərər.

İnsanların estetik tərbiyəsində, asudə vaxtının səmərəli və mənalı təşkili istiqamətində cəmiyyətin imkanlarından hərtərəfli istifadə etməliyik. Abidələrimiz haqqında maraqlı mühazirə və söhbətlərin təşkili, bədii əsərlər yaradılması, mətbuatda yazılar dərc edilməsi, televiziya və radio ilə müntəzəm verilişlərin təşkili, vaxtaşırı sərgilər düzəldilməsi qarşıda duran prioritet məsələdir.

Gəlin, bu abidələr haqqında xalq arasında yaşayan rəvayətləri ətraflı öyrənək, bir zamanlar elimizin azadlığını və istiqlaliyyətini qorumuş, vaxtı ilə cavan, hazırda isə qoca abidələrimizi indi də biz qayğı ilə qoruyaq. Bununla da, biz öz tariximizin gözəl səhifələrini, qəhrəmanlığımızın və zəhmətsevərliyimizin şahidlərini qoruyub saxlayaq və onları baxımlı vəziyyətdə gələcək nəsillərə çatdıraq.

**Qoy bizim hamımızın ürəyi xalqımızın tarixi, mədəniyyət, memarlıq və sənət abidələrinə qarşı məhəbbətlə döyünsün. Qoruyaq onları- keçmişimizin canlı şahidlərini. Bu hissi evdə də, məktəbdə də, ictimai həyatda da gənc nəslə aşılayaq.**

● **Samir ZÜLFİYEV,**
***İsmayıllı Rayon Mədəniyyət və Turizm Şöbəsi Tarix və Mədəniyyət abidələri mühafizəçilərinin rəhbəri***